**Pol Stretern**

# FUKO İLƏ 90 DƏQİQƏ

İngiliscədən tərcümə:
Çimnaz Vəliyeva

qanun nəşriyyatı

Paul Strathern

# FOUCAULT IN 90 MINUTES

Pol Streternin “Fuko ilə 90 dəqiqə” əsəri fransız filosof Mişel Fukonun bəzən mürəkkəb və dolaşıq görünən fəlsəfi ideyalarını sadə dillə cəmi doxsan dəqiqəlik oxu müddətinə sığdıran yığcam kitabıdır. Oxucu cəmi doxsan dəqiqə ərzində Fukonun uşaqlığından başlayaraq tələbəlik illərinə, Tunis və Kaliforniyadakı akademik mühazirələrinə, San-Fransiskodakı “tədqiqatlarına” və Parisdəki son günlərinə qədər səyahət edir. Müəllif Fukonun təkcə güc və bilik, epistema[1], biliyin arxeologiyası və genealogiya kimi anlayışlarını deyil, onun şəxsi həyatının bəzən qəribə, bəzən məhrəm, bəzən isə heyrətləndirən tərəflərini araşdırır.

Maşın qəzasına düşəndən sonra bunu həyatının ən şirin xatirəsi adlandıran Fuko ilə yaxından tanış olmağa hazır olun.

---

[1] **Epistema** – müəyyən bir dövrdə və ya cəmiyyətdə bilginin necə qurulduğunu, hansı prinsiplərə əsaslandığını və biliklərin hansı şərtlərlə “doğru” hesab edildiyini bildirir. (kor. qeydi)

# MÜNDƏRİCAT

Giriş........................................................................ 7

Fukonun həyat və yaradıcılığı.................................. 10

Fuko haqqında və Fukonun özündən bəzi sitatlar, tənqidlər və ideyalar................................................ 76

Fukonun bəzi əsas ideyaları ..................................... 77

Fukonun əsərlərindən qızıl cümlələr........................ 79

Fəlsəfə tarixinin mühüm mərhələlərinin xronologiyası.......................................................... 81

Fukonun həyat və yaradıcılığının xronologiyası...... 84

Tövsiyyə olunan kitablar......................................... 86

## Giriş

Fuko klassik fəlsəfə ənənəsinə mənsub filosof olmayıb. Bununla belə, həyatının bir mərhələsində bəzi çevrələrdə onu "yeni Kant" kimi qəbul edirdilər, bu isə, əlbəttə ki, şişirdilmiş yanaşma idi. Bunun günahını bütünlüklə Fukonun üzərinə atmaq olmaz (hərçənd o da belə fikirləri təkzib etmək üçün xüsusi səy göstərmirdi). Klassik filosof ola bilmədiyinə görə də Fukonu qınamaq olmaz. Məsələ təkcə onun intellekt səviyyəsində deyil. Əsas səbəb ondadır ki, Vitgenşteyn öz fikirləri və yanaşması ilə klassik fəlsəfə dövrünü başa çatdırmışdı. O təkidlə bildirirdi ki, artıq "fəlsəfə" adlı ayrıca sahə mövcud deyil – sadəcə, fəlsəfi düşünmə tərzi, yəni "filosofluq" qalıb. Vitgenşteynin fikrincə, əsas fəlsəfi sualların çoxu, əslində, dilin yanlış istifadəsindən yaranan səhvlərin nəticəsidir. Bu səhvi anlamaq kifayətdir ki, sual özü yoxa çıxsın. Qalan suallar isə cavabsız idi (daha doğrusu, verilməməli suallar idi).

Amma klassik fəlsəfə ənənəsi müəyyən formada kontinental Avropa fəlsəfəsində, Haydeggerin əsərlərində yaşamağa davam edirdi. Haydegger, Vitgenşteyn fəlsəfəsinin və məntiqin sərhədlərindən kənarda fəaliyyət göstərdiyini, insan düşüncəsinin və qavrayışının ən dərin təməlini təhlil etdiyini iddia edirdi. Bu ənənə Fukoya böyük təsir göstərdi. Onun üçün fəlsəfəyə yeni bir qapı açdı. Fuko anladı ki, əslində, hər "bilik" formasının öz həqiqət versiyası var. O göstərdi ki, bu "həqiqətlər", əsasən, fərziyyələrdən asılıdır, daha doğrusu, bu "həqiqətlər" onların elan edildiyi və ya yayılmağa başladığı dövrün fərziyyələrinə və düşüncə tərzinə əsaslanırdı.

Fuko öz vəzifəsinə filosofdan daha çox tarixçi kimi yanaşır, tədqiq etdiyi dövrə aid ilkin sənədləri diqqətlə öyrənirdi. Bu yolla, yəni birbaşa mənbələrə istinad edərək, onu maraqlandıran dövrün cəmiyyəti, bilik sistemi və hakimiyyət quruluşu haqqında məlumat əldə edirdi. Bu araşdırmalar nəticəsində Fuko belə nəticəyə gəldi ki, bilik və hakimiyyət bir-biri ilə sıx bağlıdır və bunları "güc/bilik" anlayışı altında ümumiləşdirmək olar. Bu fikir onun fəlsəfəsinin ana xəttini təşkil edirdi. Amma bu nəticəyə gələnədək Fuko saysız-hesabsız konkret faktlar üzərində işləməli olmuşdu. Dəlilik, seksuallıq, intizam

və cəza – bu mövzuların tarixini o öz fəlsəfəsinin ayrılmaz tərkib hissəsi sayırdı. Bu məsələlərin onun şəxsi həyatı ilə necə bağlı olduğunu da nəzərə alsaq, nəticədə, müasir dövrün ən çox müzakirə olunan, ən qalmaqallı filosofunu görürük.

Bəs bütün bu qalmaqallı yanaşmaların əsl fəlsəfi dəyəri nə idi? Fukonun ölümündən iyirmi il keçsə də, bu barədəki fikirlər hələ də haçalanır. Fəlsəfi fikirlər tarixdən asanlıqla silinə bilir. Fukonun ideyalarının günü bu gün də müzakirə olunması, müəyyən mənada onların qəbul olunmasının göstəricisidir. Bu müzakirələrin nə qədər davam edəcəyinə isə biz qərar verə bilmərik.

## Fukonun həyat və yaradıcılığı

Pol-Mişel Fuko 1926-cı il oktyabrın 15-də Parisdən 250 mil cənubda yerləşən Puatye şəhərində anadan olub. Onun valideynləri varlı burjuaziya ailəsinə mənsub idi və fransız əyalətçiliyinin canlı təcəssümünə çevrilmiş şəhərdə yaşayırdılar. Atası tanınmış cərrah idi, yerli tibb kollecində dərs deyirdi və yaxşı qazancı vardı. Anası qətiyyətli və iradəli bir qadın idi, ərinin maliyyə işlərini idarə edir, onun həkimlik fəaliyyətinin təşkilinə köməklik göstərir və o dövr üçün cəsarətli addım sayılan bir iş görərək avtomobil sürürdü.

Fukonun ailəsinin Puatyedəki evindən başqa, şəhər kənarında kiçik bağ evləri də vardı. Pol-Mişel hələ uşaq ikən ailəsi Atlantik okeanı sahilindəki *La Bol kurortunda* yay evi tikdirmişdi. Bu villa beş nəfərlik ailəyə və xidmətçilərə kifayət edəcək qədər geniş idi. Ailə yay tətillərini burada – aypara şəklindəki uzun sahili qucaqlayan küknar ağacları arasın-